# Salyan: uğurlar xoş ovqat yaradır



***❒ Əvvəllər hər dəfə "əhvalım yaxşıdır" mənasını verən "yerim Salyandır" ifadəsini eşidəndə təəccüblənirdim. Salyanlıların tez-tez işlətdikləri, az qala zərb-məsələ çevrilmiş bu deyimin hərfi mənasını (necə yəni, yerim Salyandır, olsun da burada nə var ki...) deyil, ehtiva etdiyi anlamı özüm üçün yəqinləşdirməyə çalışırdım.***

Hamı bilir ki, Salyanın təbiəti dağ, meşə, yaşıllıq sarıdan kasaddır. Bunlar yoxdursa, ortada Kürün əsrarəngiz və füsunkar mənzərəsi qalır. Hələ bu da sualın tam cavabı deyil. Onda Salyanı rahat məkana çevirən nədir?

Deyəsən, tapmışam...Dünyaya göz açandan ana Kürün həzin, şirin pıçıltıları ilə boya-başa çatan salyanlıların çox səmimi, qonaqpərvər insanlar olmaları tamamilə təbiidir. Bu yurdun adamlarına həm də Allahın yaratdığı hər şeyə sevgilə yanaşmaq duyğusu xasdır.

Salyanlılar həm də çox zəhmətsevərdirlər. Yəni, bir jurnalist olaraq, belə yaxşı insanların arasında olmaqdan, onların uğurlarından, arzu və diləklərindən yazmaqdan gözəl nə ola bilər ki?!

## Əhalinin rifahı yüksəlib

Bu dəfə Salyana ilin son günlərində gəlmişdim. Narın yağış təzəcə kəsmişdi. Kür tərəfdən sərin meh əsirdi. Şəhərin mərkəzi parkında rayon Ziyalılar Birliyinin sədri Allahverdi Piriyevlə rastlaşdım. Xeyli söhbət etdik.

Əvvəlcə düşündüm ki, Allahverdi müəllim havanın yağıntılı keçməsindən gileylənəcək. Əksinə dedi ki, bu yağış göylərin nemətidir, o, Muğan torpağına xeyir-bərəkət gətirir.

Sonra söhbət ölkəmizdə son illər əldə edilən uğurlardan düşdü. Həmsöhbətim bu məqamda ürəkdolusu dedi:

– Azərbaycanda hazırda bütün sahələrdə sürətli inkişaf, tərəqqi baş verir. Mən bu gün müstəqil ölkənin vətəndaşı, ziyalısı olaraq, özümü xoşbəxt sayıram. Ona görə ki, Vətənimin hər yerində inkişaf və tərəqqi görürəm. İnsan üçün bundan böyük səadət ola bilərmi?! Hesab edirəm ki, Azərbaycanın uğurlarının kökündə, ilk növbədə düzgün idarəçilik, xalqla iqtidarın sarsılmaz birliyi dayanır. Əminəm ki, Prezident İlham Əliyevin müdrik liderliyi sayəsində qarşıdakı illərdə ölkəmizin uğurları daha da artacaq.

Allahverdi müəllim sözünün davamında dedi ki, indi ölkəmizin hər bir bölgəsi kimi, son illər Salyan rayonu da sürətlə inkişaf edir. Ən başlıcası, rayon əhalisinin rifahı, güzəranı çox yaxşılaşıb. Salyanlıların hər biri dövlətimizin, şəxsən möhtərəm Prezidentimiz İlham Əliyevin daxili və xarici siyasətindən çox razıdır.

## Abadlıq və quruculuq işləri vüsət alıb

Cəsarətlə demək olar ki, hazırda Salyan ölkəmizin ən gözəl rayon mərkəzlərindən biridir. Son illər burada aparılan abadlıq-quruculuq işlərinin həcmi və vüsəti diqqəti cəlb edir. Maraqlı cəhət həm də budur ki, bütün bu işlər böyük zövqlə, səliqə-sahmanla görülür. Rayon icra hakimiyyəti başçısı aparatı memarlıq və tikinti şöbəsinin müdiri, rayonun baş memarı Teyyub Hüseynov dedi ki, rayon mərkəzində və kəndlərdə tez-tez keçirilən abadlıq-quruculuq işlərinə sakinlər də cəlb olunurlar.

T.Hüseynov sonra məlumat verdi ki, Prezident İlham Əliyevin 4 oktyabr 2018-ci il tarixli, 519 nömrəli "Azərbaycan Respublikasının şəhər və rayonlarında çoxmənzilli binaların dam örtüklərinin təmiri ilə bağlı əlavə tədbirlər haqqında" sərəncamına uyğun olaraq Salyan rayonunda ümumi sahəsi 1750 kvadratmetr olan 2 binanın dam örtüyünün dəyişdirilməsi nəzərdə tutulub. Sərəncamın icrası ilə əlaqədar olaraq Salyan şəhərinin Ə.Quliyev küçəsi 12 və 28 May küçəsi 55 saylı ünvanında yerləşən beşmərtəbəli binaların dam örtüklərinin təmiri nəzərdə tutulub. Təmir işləri ilə əlaqədar hazırlıq işlərinə başlanılıb.



Bundan başqa, şəhərin 38 kommunal binasında əsaslı təmir işləri görülüb, binaların fasadında qopmuş aqlay üzlük plitələri yenisi ilə əvəz edilib, fasad və bloklarda köhnə suvaq qatı sökülərək suvanmış divarlar emulsiya ilə rənglənib, su-kanalizasiya xətləri dəyişdirilib.

## Yeni yollar, körpülər salınıb

Son illər Azərbaycanın əksər rayonlarında yol infrastrukturu sürətlə inkişaf edir. Belə bölgələrdən biri də Salyandır. Bir vaxtlar Arbatan kəndinin yolu bərbad gündə idi. Kənd sakini Mətləb Hüseynov dedi ki, indi bura gözəl və rahat yol çəkilib.

Son aylara qədər Seyidsadıqlı kənd yolunun "cəfası"ndan dilə gələnlər çox olub. Son vaxtlar bu kəndə də rahat yol çəkilib. Seyidsadıqlı kənd sakini Gülsüm Nağıyeva da təzə yoldan çox razılıq etdi.

Salyan RİH-də bildirdilər ki, rayonda yol-nəqliyyat infrastrukturunun yaxşılaşdırılması istiqamətində uğurlu tədbirlər görülüb. Belə ki, Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolu istifadəyə verilmiş, 16 kilometr uzunluğunda Qaraçala-Düzənlik-Peyk kəndlərini birləşdirən yolda, 45 kilometr uzunluğunda Salyan-Neftçala avtomobil yolunda və Noxudlu kəndindən keçən Şirvan-Salyan avtomobil yolunun 13 kilometr hissəsində tikinti işləri başa çatdırılmışdır.







## Məhsul istehsalı artıb

Salyan ölkəmizin ən böyük kənd təsərrüfatı rayonlarından biridir. Son illər rayonda aqrotexniki tədbirlərin düzgün həyata keçirilməsi hesabına, demək olar ki, bütün sahələrdə məhsul istehsalı artmışdır.

Bu il rayonda 7055 hektar torpaq sahəsində pambıq əkilmiş, bu vaxtadək sahələrdən 11 min tondan çox məhsul toplanmışdır. Pambıq əkini aparılmış sahələrdə 5995 nəfər işlə təmin olunmuşdur.

Ərəbqardaşbəyli kənd sakini, qabaqcıl fermer İbadət Cəfərov dedi ki, rayon fermerləri pambıqçılığa böyük maraq göstərirlər. Şəxsən İbadətin başçılıq etdiyi fermer təsərrüfatının üzvləri bu il 65 hektar sahədə pambıq çiyidi əkmiş, düzgün aqrotexniki qulluq apararaq 220 ton məhsul toplamışlar. Bir hektarın məhsuldarlığı 34 sentner təşkil etmişdir.

2018-ci ilin məhsulu üçün 16813 hektar sahədə taxıl, bundan 8348 hektar buğda, 8465 hektar arpa, 4039 hektar sahədə təzə yonca, 660 hektar sahədə dən üçün qarğıdalı, 420 hektar sahədə kartof, 1241 hektar sahədə tərəvəz, 822 hektar sahədə isə bostan məhsullarının əkini aparılmışdır. Ümumilikdə, 16813 hektar taxıl sahəsindən 54,3 min ton məhsul toplanmışdır.

## Yeni istehsal müəssisələri yaradılıb

Salyanda son illər sahibkarlığın inkişafına hər cür qayğı göstərilir. Məhz bu qayğının nəticəsidir ki, rayonda yeni istehsal müəssisələrinin yaradılması sürətlənib. Salyan Statistika İdarəsində öyrəndim ki, 2018-ci ildə rayona cəlb edilmiş investisiyalar hesabına 28 istehsal, xidmət və iaşə obyektinin tikintisi başa çatdırılmış, 207 yeni iş yeri yaradılmışdır.

Məsələn, Həsənli kəndi ərazisində 100 min başlıq damazlıq quşçuluq təsərrüfatının, Kürsəngi kəndi ərazisində istixana kompleksinin, şəhər ərazisində pivə və limonad istehsalı zavodunun və ikimərtəbəli "Bazar-ticarət mərkəzi"nin tikintisi əsasən başa çatdırılmışdır.

Rayonun Xıdırlı kəndi ərazisində zeytun və meyvə emalı zavodları istifadəyə verilmişdir. Bu müəssisələrin tikintisi məhsul istehsalının artımı ilə yanaşı, yüzdən artıq yeni iş yerinin yaranmasına səbəb olmuşdur.

Əhalinin işlə təmin olunması istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi nəticəsində 2018-ci ilin doqquz ayında 725-i daimi olmaqla, 6856 yeni iş yeri yaradılmışdır.

Rayonda əhalinin içməli su, elektrik enerjisi, təbii qazla təchizatı yaxşılaşmışdır.

**PS. Bu dəfə Salyanda hara getdimsə, hansı kollektivdə oldumsa, kimlə görüşdümsə, hər yerdə qurub-yaratmaq əzmi, hər kəsi xoş ovqatda gördüm. Müşahidələrimi Salyan Rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov ilə bölüşəndə, həmsöhbətim fəxrlə dedi ki, qədirbilən Salyan camaatı bundan sonra da dövlətimizin, şəxsən möhtərəm Prezidentimiz İlham Əliyevin Azərbaycanın hər bir bölgəsi kimi, Salyanın davamlı inkişafına və tərəqqisinə göstərdiyi böyük diqqət və qayğıya əməli işlərlə cavab verməyə çalışacaq.**

*Səməd HÜSEYNOĞLU,*
*"Xalq qəzeti"nin bölgə müxbiri*